| FOMINOV CONSULTING | **TÜTÜN MƏMULATLARINDAN İSTİFADƏNİN MƏHDUDLAŞDIRILMASI SİYASƏTİ** |
|---|---|

2014-cü ildə təsis edilmiş "FOMİNOV CONSULTİNG" MMC 14.05.2025-ci il tarixli 33 nömrəli qərar və 506 nömrəli lisenziya əsasında Azərbaycan Respublikasında fəaliyyət göstərən sistem inteqrasiyası və informasiya texnologiyaları sahəsində ixtisaslaşmış şirkət olaraq təhlükəsiz, sağlam və dayanıqlı iş mühitinin təmin edilməsini əsas idarəetmə prioritetlərindən biri hesab edir.

Şirkət əməkdaşların sağlamlığının qorunmasını, iş mühitində təhlükə və risklərin minimuma endirilməsini, əməyin mühafizəsi mədəniyyətinin inkişaf etdirilməsini və təhlükəsiz iş şəraitinin təmin olunmasını öz fəaliyyətinin ayrılmaz hissəsi kimi qəbul edir.

"FOMİNOV CONSULTİNG" MMC işçi sağlamlığı və təhlükəsizliyinin təmin edilməsinə, qanunvericiliyin tələblərinə əməl edilməsinə, eləcə də ətraf mühitin mühafizəsi üzrə öhdəliklərinə sadiqdir. Bu siyasət Azərbaycan Respublikasının "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Qanununa, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 3 aprel 2018-ci il tarixli 127 nömrəli Qərarı ilə təsdiq edilmiş "Tütün çəkmək üçün xüsusi ayrılmış yerlərə dair Tələblər"ə və ISO 45001:2018 standartının tələblərinə uyğun olaraq hazırlanmışdır.

Bu siyasətin məqsədi işçilərin sağlamlığının qorunması, sağlam həyat tərzinin təşviqi, zərərli vərdişlərin profilaktikası, passiv siqaret çəkmənin qarşısının alınması, yanğın və digər təhlükəsizlik risklərinin azaldılması, həmçinin şirkətin əmlakının və iş mühitinin qorunmasının təmin edilməsidir.

Tütün məmulatları dedikdə tütün yarpağından və ya onun komponentlərindən hazırlanmış, tərkibində nikotin və digər zərərli maddələr olan, istifadəçidə asılılıq yaradan məhsullar (siqaretlər, papiroslar, siqarlar, qəlyan tütünləri və digər analoji məhsullar) nəzərdə tutulur. Elektron siqaretlər, vape cihazları, qızdırılan tütün məhsulları və qəlyanlar da bu siyasətin tətbiqi baxımından tütün məmulatları ilə eyni qaydada qiymətləndirilir.

Yanğın təhlükəsizliyi, işçi sağlamlığı və ətraf mühitin mühafizəsi tələblərinə uyğun olaraq şirkətin inzibati binalarında, ofis sahələrində, anbarlarda, texniki otaqlarda, nəqliyyat vasitələrində və digər iş yerlərində tütün məmulatlarından istifadə qadağandır. Tütün məmulatlarından istifadəyə yalnız qanunvericiliyin tələblərinə uyğun təşkil edilmiş və xüsusi ayrılmış yerlərdə icazə verilir.

Şirkət rəhbərliyi bu siyasətin həyata keçirilməsi, tələblərinə əməl olunması, mütəmadi monitorinqi və davamlı təkmilləşdirilməsi üçün zəruri resursların ayrılmasını təmin edir.

Bu siyasətin tələbləri "FOMİNOV CONSULTİNG" MMC-nin bütün əməkdaşlarına, podratçılarına, təchizatçılarına, qonaqlarına və digər maraqlı tərəflərinə çatdırılır və onların bu tələblərə riayət etməsi gözlənilir.

Bu siyasətin tələblərini pozan şəxslər Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə və "FOMİNOV CONSULTİNG" MMC-nin daxili normativ sənədlərinə uyğun olaraq məsuliyyət daşıyırlar.

Direktor: Aytən Mustafayeva

İmza, tarix: 18.06.2026